# «Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında» Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədi ilə **qərara alıram**:

1. Müəyyən edilsin ki, «Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında» Azərbaycan Respublikası Qanununun 5.2-ci və 9.2-ci maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi həyata keçirir.

2. Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 29 yanvar 2004-cü il***

***№ 19***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (1 fevral 2004-cü il, № 25)***